**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN
14 sentyabr 2023-cü il tarixli
QƏRARI**

Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 5.25-ci bəndi ilə nəzərdə tutulan, dissertasiya şurasında bir ay ərzində iki fəlsəfə doktoru və bir elmlər doktoru və ya dörd fəlsəfə doktoru dissertasiyasının müdafiəsinin keçirilməsi ilə bağlı məhdudiyyət dissertasiya şurası və onun nəzdində fəaliyyət göstərən birdəfəlik dissertasiya şurasında təşkil olunan müdafiələr nəzərə alınmaqla tətbiq edilir.